# Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər



Prof. Dr. Eldar QULİYEV

**Azərbaycan Mərkəzi Kooperativlər İttifaqı İdarə Heyətinin sədri, Azərbaycan Kooperasiya Universitetinin rektoru, iqtisad elmlər doktoru, professor Eldar Allahyar oğlu Quliyevin bu yaxınlarda "Qlobal Ərzaq Təhlükəsizliyi" adlı monoqrafiyası dərc olunmuşdur. Əsər Avropa Təbiət Elmləri Akademiyası Rəyasət heyətinin 06 fevral 2017 ci il tarixli qərarı ilə nəşr olunmuşdur. Əsərin rəyçiləri elmlər doktoru, professor Herman Vary, elmlər doktoru professor Vladimir Timinskiy, elmlər doktoru Hayrettin İvgindir.**

Çoxsaylı oxucu kütləsinin nəzərinə çatdırmaq istəyirik ki, ərzaq təhlükəsizliyinə dair həyəcan təbili çalınan bu kitabın hələ 2017-ci ilin noyabr ayında İtaliyanın paytaxtı Roma şəhərində ingilis dilində keçirilmiş təqdimatında 8 ölkənin tanınmış elm və təhsil ocaqlarının, akademik dairələrin, Romada yerləşən beynəlxalq təşkilatların, o cümlədən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) nümayəndələrinin, Azərbaycanın İtaliyadakı Səfirliyinin əməkdaşları iştirak etmişdir. Professor Eldar Quliyevin yazdığı bu kitab Qlobal Ərzaq Təhlükəsizliyinə dair dünyəvi əhəmiyyət daşıdığına görə BMT-nin İctimai Mükafatlar üzrə şurası tərəfindən "İlin Kitabı" beynəlxalq mükafatına layiq görülmüş və BMT-nin İsveçrədə yerləşən mərkəzi kitabxanasının fonduna qəbul edilmişdir. Əsərin təqdimatında həmçinin kitabın müəllifi professor Eldar Quliyevə Vatikan Bonifasiana Akademiyasının həqiqi üzvü (akademik) diplomu təqdim olunub. Onu da qeyd etməliyik ki, kitab ingilis dilindən Azərbaycan dilinə tərcümə olunaraq 2018-ci ildə Azərbaycan Kooperasiya Universitetinin nəşriyyatında dərc olunmuşdur. Kitab annotasiya, giriş, beş fəsildən ibarət olmaqla 479 səhifədən ibarətdir.

Ərzaq təhlükəsizliyi müasir qlobal təhlükələrin artdığı şəraitdə dünya sivilizasiyasını və ölkələrini narahat edən ciddi problemlərdən hesab olunur. Monoqrafiyada dünya dövlətlərinin qarşısında duran mühüm vəzifələrdən biri artmaqda olan dünya əhalisinin uzunmüddətli dövr üçün davamlı ərzaq problemlərinin həll edilməsinə dair həyəcan təbili çalınır. Eyni zamanda, dünya ölkələrinin ərzaq təhlükəsizliyinin təmin edilməsinə dair səylərin birləşdirilməsi, beynəlxalq təşkilatların bu istiqamətdə fəaliyyətinin optimallaşdırılması, ərzaqyönümlü resurslardan ən səmərəli yollarla istifadə olunması mexanizmlərinin modelləşdirilməsinin prioritet istiqamətləri olduğu müəyyənləşdirilir. Ərzaq təhlükəsizliyinə sosial aspektdə baxılması işsizlik və yoxsulluq problemlərinin həll edilməsi, qida rejimlərinin təkmilləşdirilməsi, ərzaq məsələlərində sosial bərabərsizliyin aradan qaldırılmasında mühüm əhəmiyyət kəsb edir. Müəllif haqlı olaraq ərzaq təhlükəsizliyinin təmin edilməsində dünyəvi çağırışların izlənilməsi, təbii resurslar və iqlim dəyişiklikləri ilə əlaqəli olaraq ölkələrin birgə əməkdaşlığının gücləndirilməsi və müasir texnologiyalardan səmərəli istifadə olunmasını əsas meyarlar kimi qiymətləndirir.

"Ərzaq təhlükəsizliyi iqtisadi təhlükəsizliyin tərkib hissəsi kimi" adlanan birinci fəsildə ərzaq təhlükəsizliyi problemləri iqtisadi təhlükəsizliyin tərkib hissəsi olaraq bəşəriyyətin sağlam və məhsuldar həyat tərzinə malik olmasında mühüm əhəmiyyət kəsb etməsi iqtisadi əsaslarla təhlil olunur. Xüsusilə, XXI əsrin 50-ci illərinədək dünya əhalisinin sayı 10 milyarda çatacağı halda, ərzaq məhsulları istehsalının 70% artması ölkələr tərəfindən ərzaq məhsulları üzrə iqtisadi siyasətdə optimallığın vacibliyi əsaslandırılır. Bu fəsildə ümumilikdə makroiqtisadi siyasət, fiskal siyasət və ərzaq təhlükəsizliyi məsələləri, pul siyasəti və ərzaq məsələləri, kənd təsərrüfatı, ticarət və ərzaq təhlükəsizliyi, Azərbaycanda ərzaq təhlükəsizliyinin parametrləri və s. elmi əsaslarla təhlil olunmuşdur. Ərzaq təhlükəsizliyinin parametrlərindən hesab edilən daxili bazarın qorunması, resurslardan istifadənin optimal bölgüsünün aparılması və balanslaşdırılmış siyasətin irəli sürülməsi əsas hədəflərdən biri sayılır. Aparılan təhlillərdən aydın olur ki, iqtisadi sistemin təkmilləşdirilməsi, yeni iqtisadi mexanizmlərin hazırlanması və tətbiqi əsasında ərzaq təhlükəsizliyinin təmin olunması əsas amil kimi qiymətləndirilir. Fiskal siyasət və ərzaq ehtiyatlarının yaradılmasına dair irəli sürülən tövsiyələrdə əhalinin ərzaq və qida məhsulları ilə optimal təminatı üçün və qarşıya qoyulan məqsəd və vəzifələrə çatmaq üçün üç əsas amil ön plana çəkilir.

Birincisi, fövqəladə hallar üçün olan ərzaq ehtiyatları təbii fəlakətdən, yerli və beynəlxalq ərzaq bazarlarında olan vəziyyətdən asılı olmayaraq balanslaşdırılması; ikincisi kasıb və həssas qruplara kömək üçün nəzərdə tutlmuş ərzaq proqramlarını həyata keçirmək; üçüncüsü ərzaq məhsulları qiymətlərinin sabitləşdirilməsini nəzərdə tutan və tənzimləyici funksiyanı yerinə yetirən sabitləşdirici birjalar tərəfindən böyük həcmdə ərzaq məhsullarının idarə olunması. Eyni zamanda, əsərdə ərzaq məhsullarının təminatında və səmərəli modelləşdirilməsində pul siyasətinin ölkə əhalisinin alıcılıq qabiliyyətinin yüksəlməsində, makroiqtisadi sabitliyin qorunmasında olan mövqeyi ardıcıllıqla təhlil olunmuşdur. Professor Eldar Quliyev əsərdə çox haqlı olaraq qeyd edir ki, ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan kənd təsərrüfatı sahələrinin inkişafının təmin olunmasında maliyyə təminatı və kreditlərin verilməsi, biznes mühitinin yaxşılaşdırılması və s. əsas amillərdən hesab olunur. Ərzaq təhlükəsizliyinin təmin olunmasında yuxarıda qeyd olunan amillərlə yanaşı, ticarətin iqtisadi inkişafda olan mövqeyi detalları ilə öz təhlilini tapmışdır.

"Qlobal səviyyədə ərzaq təhlükəsizliyi" adlanan ikinci fəsildə qlobal səviyyədə ərzaq təhlükəsizliyi bir tədqiqat obyekti kimi qəbul olunaraq iqtisadi siyasətin müxtəlif istiqamətləri üzrə təhlillər aparılır. Ərzaq təhlükəsizliyi kontekstində Minilliyin inkişaf hədəflərini 2015-ci ildən sonrakı dövrdə yaxın və uzaq perspektivlərdə ərzaq təhlükəsizliyinin təmin olunması ilə bağlı strateji hədəflərin olması təqdirəlayiq hal kimi qiymətləndirilir. Bu fəsildə qlobal ərzaq problemlərinin həlli istiqamətində əsas hədəflərdən olan dünya əhalisinin davamlı və dayanıqlı şəkildə, etibarlı formada və tələb olunan səviyyədə mühüm ərzaq məhsulları ilə təmin olunması çağırışları əsas yer tutur. Bu çağırışlar içərisində ərzaqyönümlü məhsullar istehsalında əməkdaşlığın yüksək səviyyədə təşkili və Minilliyin İnkişaf Hədəfləri çərçivəsində müxtəlif ölkələrdə davam edən aclıq və yoxsulluq hallarının aradan qaldırılması ön plana çəkilir. Çox haqlı olaraq həmin çağırışlarda dünyaya gələn və yaşamaq hüququ olan hər bir insanın davamlı şəkildə təhlükəsiz formada ərzaq məhsulları ilə təmin olunması əsaslı vurğulanır. 2050-ci ilədək olan dövr üçün müxtəlif FAO layihələri və ərzaq məhsulları istehsalının təhlilinə əsaslanaraq sonrakı onilliklərdə əsas problemlərdən biri torpaq resurslarının çatışmaması olacaqdır.




"Ərzaq təhlükəsizliyi sosial aspektdə" adlandırılan üçüncü fəsildə əhalinin orta təbəqəsinin formalaşmasına ərzaq təhlükəsizliyinin və ərzaq məhsulları ilə təmin olunması dünyanın ən mürəkkəb qlobal problemlərindən biri kimi xarakterizə olunur. Bu problemlərin həlli istiqamətində sistemli və ardıcıl tədbirlərin görülməsi, dünya ölkələrinin və beynəlxalq təşkilatların qarşılıqlı iqtisadi əməkdaşlığının gücləndirilməsi istiqamətləri əsərin əsas qayələri hesab olunur. Orta təbəqəli ailələrdə istehlak tələbatı artdıqca, daha çox ərzaq və qida məhsulları tələb olunur. 2007-2015-ci illər ərzində inkişafda olan ölkələrdə ərzaq üzrə istehlak xərcləri orta illik 4.6% artmışdır, sonrakı illərdə bu göstərici 2.8% təşkil etmişdir. Bu göstərici ciddi bir çağırışın olmasından xəbər verməklə qida məhsullarının tənzimlənməsi problemlərini gündəmə gətirir. Aparılan təhlillərdən aydın olur ki, dünyada müasir şəraitdə lazım olduğundan iki dəfə çox ərzaq məhsulları istehsal olunduğu halda, onların saxlanılması və bölüşdürülməsinin qeyri-səmərəliliyi həmin məhsulların 30%-nin istehlakçılara çatdırılmadan itirilməsinə səbəb olur. Nəticədə isə bir çox regionlarda ərzaq çatışmazlığı meydana gəlir. Bu tendensiya davam edərsə, əhalinin normal qida məhsulları ilə təmin olunmasında problemlərin olması qaçılmazdır. Əsərdə həmin problemlərin həlli yolları və iqtisadi mexanizmləri elmi cəhətdən əsaslandırılmışdır. Ərzaq təhlükəsizliyi və işsizliyin təmin edilməsində mühüm əhəmiyyət kəsb edən əmək fəaliyyətinin düzgün qiymətləndirilməsi, məşğulluq tədbirlərinin artırılması, kənd əhalisinin məşğulluq problemlərinin həll olunması çox qabarıq şəkildə diqqət mərkəzinə yönəldilir.

Beynəlxalq Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) apardığı araşdırmalara görə, 2050-ci ilədək qlobal qida artımı dünya əhalisinin qida ehtiyacının təxminən 70%-ni ödəmək imkanlarına malik olacaqdır. Eyni zamanda, həmin müddətdə 400 milyon insanın zəruri qida məhsullarına olan tələbatın ödənilməsindən əziyyət çəkəcəyi qeyd olunur. Bunun üçün adekvat tədbirlərin görülməsini çox qabarıq şəkildə dünya ictimaiyyətinin diqqət mərkəzinə yönəldilir. Bu fəsildə diqqəti cəlb edən məqamlardan biri də ərzaq təhlükəsizliyi və sosial bərabərsizlik prinsiplərinin açıqlanmasıdır. Bərabərsizliyin əsas növləri olan güc, var-dövlət, yoxsulluq, gəlir, təhsil, peşə, cinsi, irqi, etnik və s. məsələlər qlobal səviyyədə təhlil olunur və bu sahədə olan problemlərin həlli yolları iqtisadi baxımdan əsaslandırılır.

"Ərzaq təhlükəsizliyinin təmin edilməsində çağırışlar" adlanan dördüncü fəsildə ərzaq təhlükəsizliyinin təmin olunmasında müasir problemlər və çağırışlar əks olunmuşdur. Xüsusilə, ərzaq məsələlərinə strateji yanaşmaların vacibliyi, demoqrafik təsirlər və ərzaq çatışmazlığı məsələlərinə diqqət yetirilir. Təbiətdə baş verən qarşısıalınmaz hadisələr nəticəsində (quraq dövrlər, isti və şaxtalı hava kütlələri, böyük fırtınalar, dağıdıcı dalğalar və s.) müxtəlif regionlarda kənd təsərrüfatına bitkiçilik və heyvandarlıq sahələrində baş verən itkilər, şəhərlərdə isə qida məhsulları emalını həyata keçirən infrastrukturlara göstərilən mənfi təsirlər əsaslı şəkildə təhlil olunmuşdur. Dünya əhalisini narahat edən başlıca problemlərdən biri şirin suya olan tələbatın artması, iqlim dəyişiklikləri ilə baş verəcək problemlərin aşkar olunması və onların göstərəcəyi mənfi təsirlər kitabda ətraflı təhlil olunmuşdur. Əsərdə maraq doğuran məqamlardan biri demoqrafiya və ərzaq çatışmazlığına dair nəzəriyyələrin işıqlandırılmasıdır. Tomas Maltus, Paul Elritinin əhali artımı ilə ərzaq məhsulunun dinamikası arasında olan fərqli cəhətlər araşdırılmış, əhalinin dünyada artmasına baxmayaraq, onların gələcəkdə qida məhsulları ilə təmin olunması əsaslandırılır və həmin nəzəriyyələrə münasibət bildirilir.

Su təchizatı və təminatı ilə əlaqəli olan qlobal problemlərin aşkar olunması da qabarıq şəkildə təhlil olunur. Kənd təsərrüfatı sahələrinin sürətli inkişafı dünyanın şirin su mənbələrinin 70%-ni özündə cəmləşdirir. Halbuki suyun insanlar üçün sağlamlıq və təmiz qida mənbəyi olduğunu hiss etdikdə problemin nə qədər aktual olduğu əsərdə təfsilatı ilə təhlil edilir. Bu baxımdan şirin su ehtiyatlarından istər təsərrüfat sahələrində, istərsə də əhali tərəfindən səmərəli istifadə prinsiplərinin qorunmasına dair təkliflər irəli sürülür. Enerji resursları kontekstində yaranan enerji problemlərini həll etmək üçün bərpa olunan enerji mənbələrindən günəş, külək, su enerji mənbələrindən, bioyanacaqlardan, geotermal enerji mənbələrindən istifadənin sürətləndirilməsi dünya enerji çatışmazlığının aradan qaldırılmasında müsbət nəticələrə nail olmağa imkan verən mənbələr kimi qiymətləndirilir.

Əsərin axırıncı fəsli əvvəlki fəsillərdə aparılan təhlillər əsasında əldə olunmuş nəticə və təkliflər, davamlı ərzaq siyasəti, ərzaq məhsullarının davamlı istehsalı, ərzaq siyasətində urbanizasiyaların rolu, qlobal iqlim dəyişikliklərinin şəhər və kənd əhalisinə təsiri, ərzaq məhsullarının gücləndirilməsində biznes, elm-təhsil üçbucağının rolunun qiymətləndirilməsi qlobal miqyasda ərzaq təhlükəsizliyi sahəsində olan reallıqlar və çağırışları əks etdirməklə bütün bəşəriyyəti ərzaq təhlükəsindən azad olmaq üçün çağırışlardır.

Qeyd etməliyik ki, iqtisad elmləri doktoru, professor Eldar Quliyev ikinci, üçüncü, dördüncü və beşinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. Həmçinin, Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədr müavinidir. 2011-ci ildə Türkdilli dövlətlərin parlamentlərinin Fəxri millət vəkili seçilmiş, 2016-cı ildə Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri təyin olunmuşdur.

Səmərəli ictimai-siyasi fəaliyyətinə görə 2011-ci ilin iyul ayında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

**Zahid MƏMMƏDOV,**
**coğrafiya elmləri doktoru, professor.**